**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**ARXEOLOGİYA VƏ ETNOQRAFİYA İNSTİTUTU**

---

*Əlyazması hüququnda*

**HƏBİB ESMALİ OĞLU ŞƏHBAZİ ŞİRAN**

# ƏRDƏBIL BÖLGƏSİNİN ORTA ƏSR ARXEOLOJİ ABİDƏLƏRİ

**5505.02- Arxeologiya**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**B a k ı– 2014**

**Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun "Orta əsrlər arxeologiyası" şöbəsində yerinə yetirilmişdir.**

**Elmi rəhbər:** **Tarix Meyrut oğlu Dostiyev**
tarix elmləri doktoru

**Rəsmi opponentlər:** **Qüdrət Seyfulla oğlu İsmayılzadə**
tarix elmləri doktoru, professor

**Abuzər Ələkbərov**
tarix üzrə fəlsəfə doktoru

**Aparıcı müəssisə: Azərbaycan Dövlət Pedoqoji Universitetinin "Ümumi tarix" kafedrası**

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutu nəzdində fəaliyyət göstərən tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün (5505.02 – Arxeologiya) dissertasiyaların müdafiəsini keçirən F/D.01.171 Dissertasiya Şurasının "_25___" __06_____ 2014-cü il tarixli iclasında saat____da keçiriləcəkdir.

Ünvan: Bakı şəhəri, AZ 1043 H.Cavid prospekti 115

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "___" ___________ 2014-cü ildə göndərilmişdir.

**F/D 01.171**
**Dissertasiya Şurasının**
**Elmi katibi** **Səfər Hüseyn oğlu Aşurov**
*tarix üzrə fəlsəfə doktoru*

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.**

Milli kimliyi tanıma, planlaşdırma və inkişaf koordinatlarından biri ölkənin tarixi və mədəni abidələrini öyrənməkdir. Buna görə də ulu əcdadlardan qalan mədəni irsi öyrənmək olduqca zəruridir.

Keçmişdən qalan arxeoloji irs cəmiyyətin tarix boyu daima inkişafda olduğunu göstərir. Öz kimliyini dərk etmək və mədəni inkişafın istiqamətini müəyyənləşdirməkdə arxeoloji abidələrin rolu olduqca böyükdür. İnsan zaman sürəsində baş verən hadisələrindən nəticə çıxarmaqla və keçmiş təcrübələrdən gündəlik həyatında istifadə etməyi bacardıqca mədəni irsin əhəmiyyəti düzgün qiymətləndirə bilir. Çünki bu təcrübələri qazanıb gələcək nəsillərə ötürmək üçün böyük əmək sərf edilmiş, bəzən isə böyük itkilər verilmişdir. Deməli,arxeoloji abidələr tarix boyu bir-birini əvəz edən nəsillərin təcrübəsidir. Hər bir bölgənin arxeoloji abidələri qədim tarixin daşlaşmış dili, hər bir millətin qiymətləndirmə normalarıdır. Bu nöqteyi-nəzərdən tarixə öz töhfəsini verən Ərdəbil bölgəsi xüsusilə əhəmiyyətlidir. Bu diyarın arxeoloji əhəmiyyəti, xüsusilə mənəvi baxımdan onu daha çox öyrənmə, dərk etmə zəruriliyini meydana gətirmişdir.Bölgənin hər bir arxeoloji abidəsi və qədim dövrlərə aid maddi mədəniyyət qalıqları orada yaşayan xalqların həyat tərzini, istehsal təcrübəsini, adət- ənənələrini göstərən sənədlərdir.

Orta əsrlərdə mürəkkəb hərbi-siyasi, sosial-iqtisadi və mədəni dini proseslərin cərəyan etdiyi Ərdəbil bölgəsi son vaxtlaradək kompleks tarixi-arxeoloji tədqiqata cəlb edilməyib. Bölgənin zəngin arxeoloji abidələri, eləcə də bölgənin Azərbaycan tarixində oynadığı rol belə bir tədqiqatı aktual edir və hazırkı dissertasiya mövzusunun tədqiqat üçün seçimini şərtləndirib. Tədqiqatın aktuallığı yazılı qaynaqların məlumatları və toplanmış arxeoloji materiallar əsasında Ərdəbil bölgəsinin orta əsrlər tarixinə və mədəniyyətinə dair monoqrafik araşdırmalar aparılmasında, bölgənin sosial-iqtisadi, siyasi və mədəni-dini durumunu obyektiv mövqedən işıqlandırılmasında və bu bölgənin Azərbaycan tarixində tutduğu yeri müəyyənləşdirməsindədir.

**Tədqiqatın xronoloji çərçivəsi** IX – XVIII əsrin əvvəllərini əhatə edir. Ərəb istilası, İslam dininin yayılması ilə əlaqədar Azərbaycanda VII-VIII əsrlərdə tarix və mədəniyyətdə əsaslı dəyişiklərə səbəb olan hadisə və proseslər cərəyan edir, islamaqədərki mədəni dəyərlərin, ənənələrin transformasiyası, yeni ideologiyaya uyğunlaşması prosesi gedir və bu proses IX əsrdə başa çatır. IX əsrdə Xilafətin zəifləməsi bir çox müstəqil və yarımmüstəqil feodal dövlətlərinin yaranması ilə nəticələnmişdi. Belə

dövlətlərdən biri də Azərbaycanın Sacilər dövləti idi. Ərdəbil şəhəri Sacilər dövlətinin mühüm şəhəri idi.

Ərdəbil şəhəri sonrakı dönəmlərdə də – Salarilər, Rəvvadilər, Səlcuqlar, Azərbaycan Atabəyləri, Elxanilər, Qaraqoyunlu və Ağqoyunlular dövründə də Azərbaycanın mühüm şəhəri olaraq qalır. Səfəvilər dövlətində Ərdəbil şəhərinin xüsusi mövqeyi vardı. Beləliklə, tədqiqat işinin xronoloji çərçivəsinin müəyyənləşdirilməsi təsadüfi olmayıb, Ərdəbil şəhərinin Azərbaycan tarixində tutduğu mövqe ilə şərtlənmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Bu tədqiqat işində məqsəd yazılı mənbə məlumatları və arxeoloji materiallar əsasında Ərdəbil bölgəsində orta əsrlərdə baş vermiş siyasi hadisələri, sosial-iqtisadi prosesləri, təsərrüfat həyatını, sənət istehsalının inkişafını, ticarət əlaqələrini, mədəni-dini durumunu tədqiq etməkdən, Azərbaycan tarixinə dair yeni ümumiləşdirici nəticələr çıxarmaqdan ibarətdir. Qarşıya qoyulan məqsədə çatmaq üçün aşağıdakı məsələlərin həllinə cəhd göstərilib:

a) bölgənin orta əsrlərə aid arxeoloji abidələrini müəyyənləşdirmək;

b) arxeoloji abidələri sistemləşdirmək, yaşayış yerlərinin tipoloji təsnifatını aparmaq;

c) bölgənin inşaat sənətini, memarlığının səciyyəvi xüsusiyyətlərini müəyyənləşdirmək;

d) araşdırma zamanı əldə edilmiş daşınan maddi mədəniyyət nümunələrini (saxsı və digər mədəni qalıqlar) sistemləşdirmək, səciyyəvi xüsusiyyətlərini müəyyənləşdirmək;

e) artefaktların təhlili əsasında müxtəlif dövrlərə aid mədəni dəyişikliklərin ümumiləşdirilmiş xronologiyasını vermək;

f) orta əsrlərdə bölgədə mədəni-dini şəraiti, onun səciyyəvi xüsusiyyətlərini müəyyən etmək;

h) bölgənin Azərbaycan tarixində tutduğu yeri təyin etmək.

**Problemin öyrənilmə dərəcəsi.**Bizim tədqiqatımıza qədər aparılmış bütün araşdırmalar məzmun baxımından dəyərli olsalar da ya mövzumuzla az əlaqədədir, yaxud da ciddi xarakter daşımırlar. Müəyyən əlaqədə olan əsərlərə gəldikdə isə fərqli mahiyyət və quruluşa malikdirlər. Bununla belə Ərdəbil bölgəsinin orta əsr abidələrinin öyrənilməsində Əli Əkbər Kargər Sərfərazın, Məhəmməd Mehryarın, Mahmud Musəvinin, Seyid Camal Turabi Təbatəbayinin, Baba Səfərinin, Həsən Yusifinin, Kərim Əlizadənin tədqiqatlarının əhəmiyyətini xüsusi qeyd etmək istərdik.

Yuxarıda qeyd olunan əsərlərdə ziddiyyətli cəhətlər və qüsurlar onlardan güddüyümüz müsbət nəticələrin əldə olunmasına imkan verməmişdir. Əlbəttə müəllifin fikrinin xilafına olan nəzəriyyələr də araşdırmamızdan kənarda

qalmamışdır (əlbəttə tənqidi baxışla). Bu da tədqiqatımızı zənginləşdirmiş və müəllifin nəzəri əsaslarının formalaşmasına yardım etmişdir.

Ərdəbil bölgəsinin orta əsrlər tarixinin öyrənilməsində Azərbaycan tarixçilərinin, xüsusilə akademiklər Ziya Bünyadovun, Nailə Vəlixanlının, Məmmədəli Şəriflinin, Oktay Əfəndiyevin əsərlərinin əhəmiyyəti böyükdür.

**Tədqiqatın mənbə bazası.** Tarixi-arxeoloji araşdırmaların dəyəri tədqiqatçının istifadə etdiyi mənbələrin xarakterindən, kəmiyyət və keyfiyyətindən, onların lazımi səviyyədə təhlil edilməsindən asılıdır. Dissertasiya işinin yazılmasında fars, ərəb, türk, Avropa xalqlarının dillərində yazılmış yazılı qaynaqlardan, Ərdəbil bölgəsinin arxeoloji tədqiqindən əldə olunmuş arxeoloji materiallardan istifadə edilmişdir.

IX – XII əsrlərin ərəb tarixçiləri, coğrafiyaşünas səyyahları Azərbaycan, o cümlədən Ərdəbil bölgəsinin sosial-iqtisadi, siyasi və mədəni-dini inkişafını araşdırmaq baxımından böyük əhəmiyyət kəsb edən məlumatlar verirlər. Düzdür, bu məlumatlar əksər hallarda qısa, qeyri-ardıcıl və bir-birinə bənzərdir. Bununla belə həmin qaynaqların məlumatı bizim tədqiqat üçün olduqca qiymətlidir. Səlcuqlar dönəmindən başlayaraq, xüsusilə monqol ağalığı və sonrakı dövrlərdə bölgə haqqında farsdilli mənbələrin məlumatı genişlənir. Son orta əsrlərdə Avropalıların İrana və Azərbaycana marağının artması ilə italyan, alman, fransız, ingilis dillərində yazılmış əsərlərdə bölgə haqqında elmi əhəmiyyət kəsb edən məlumat verilir.

**Tədqiqatın metodoloji əsası və işlənmə metodları.**

Dissertasiya işinin metodoloji əsasını yazılı mənbələrin və arxeoloji materialların elmi sintezi şəklində əlaqələndirilməsi, tarixi-arxeoloji tədqiqatlarda qəbul olunmuş hadisə və prosesləri inkişafda dərk etməyə, obyektiv nəticələr çıxarmağa imkan verən elmi prinsiplər təşkil edir. Tədqiqat prosesində müəllif tipoloji, müqayisəli təhlil, məntiqi təhlil, statistik metodlara üstünlük vermişdir.

**Tədqiqatın elmi yeniliyi.** Bölgənin orta əsr abidələrinin tədqiqi ilə bağlı dissertant 1995-2013- cü illərdə Ərdəbilin Şeyx Səfi kompleksində, Came məscidi sahəsində arxeoloji qazıntılaraparmışdır. Arxeoloji axtarışlarla bölgədə Gənzə, Gorantəpə, Govurtəpə, Divanxana təpə, İlanlıdağ yaşayış yerlərini qeydə almış, Boynuyoğun və Qəhqəhə qalalarındakıtədqiqatlarla bölgənin orta əsr maddi mədəniyyətinə dair maraqlı faktik materialların əldə etmişdir.

Məlum olduğu kimi tədqiqat hadisələrin sirrini açmaq üçün aparılan sistemli axtarışdır. Dissertasiya işində ilk dəfə olaraq Ərdəbil bölgəsinin orta əsr arxeoloji abidələri külli-halda tədqiqata cəlb olunmuş, onların təsnifatı aparılmışdır. Orta əsr Bərzənd və Varsan şəhərlərinin lokalizasiyasına cəhd göstərmişdir. İlk islam dövrlərindən Səfəvilər dövrünün sonuna kimi zaman

sürəsinə aid olan tapıntıları təqdim etməklə bölgənin çox zəngin mədəniyyətə malik olduğunu göstərmək, aparılmış arxeoloji tədqiqatlara əsaslanmaq, nəhayət bölgədə orta islam mədəniyyəti dövrünə aid abidələrin bir çox sirlərini açmaq dissertasiya işinin diqqətəlayiq nailiyyətlərindəndir.

Bölgənin orta əsr yaşayış yerlərinin tədqiqi onların bəzilərinin minilliklər ərzində fasiləsiz fəaliyyət göstərdiyini, abidələrin çoxtəbəqəli olduğunu müəyyənləşdirməyə imkan verib.

Bölgənin orta əsr maddi mədəniyyətinin ümummüsəlman və məhəlli xüsusiyyətləri müəyyən edilib.

**Tədqiqatın praktiki əhəmiyyəti.** Mədəni irsin mühafizəsi beynəlxalq vəzifəyə çevrilib.Şübhə yoxdur ki, günümüzdə millətlərin həmrəyliyi və dialoqda bir- birlərini başa düşməyə daha çox ehtiyacları vardır. Buna görə də hər bölgənin mədəni sərvətləri və tarixi abidələri dialoq üçün ən mühüm vasitədir. Hər diyarın mədəni sərvətləri əhalinin davranış, əxlaqiyyat və adət-ənənəsinə açılan qapıdır. Hər bölgənin mədəni sərvətlərini tanımaq və tanıtdırmaq hamının borcudur, hamıya vacibdir. Əslində bu tədqiqatın bir hədəfi də Ərdəbil bölgəsinin arxeoloji irsinin təbliğidir. Dissertasiya işinin nəticələri İslam arxeologiyası üzrə ümumiləşdirici əsərlərin yazılmasında, ali məktəblərdə seçmə fənlər üzrə mühazirələrin oxunmasında istifadə edilə bilər.

Tədqiqat turizm fəaliyyətlətləri və xalq kütləsini maarifləndirmək baxımından da əhəmiyyətlidir.

**Dissertasiyanın aprobasiyası.**Tədqiqatın nəticələri müxtəlif məruzələr şəklində beynəlxalq konfranslardaelmi ictimaiyyətin diqqətinə çatdırılmış və dünyanın mötəbər elmi jurnallarında məqalələr çap etdirilmişdir. Dissertasiya işinin AMEA Arxeologiya və Etnoqrafiya İnstitunun Orta əsrlər arxeologiyası şöbəsində İnstitutun digər şöbələrinin əməkdaşlarının iştirak etdiyi genişləndirilmiş iclaslarında iki müzakirəsi keçirilmiş və müdafiəyə məsləhət bilinmişdir.

**Dissertasiyanın quruluşu:**Ərdəbil bölgəsinin orta əsr arxeoloji abidələri mövzusunda dissertasiya işi giriş, üç fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir.Dissertasiyaya arxeoloji abidələrin və artefaktlarin fotoşəkilləri, cədvəl, cizgi və dioqramlardan ibarət illustrasiyalar da əlavə edilmişdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "Giriş" hissəsində mövzunun aktuallığı, xronoloji çərçivəsi əsaslandırılmış, məqsəd və vəzifələri müəyyənləşdirilmiş, öyrənilmə səviyyəsi, mənbəşünaslıq bazası şərh edilmiş, tədqiqatın elmi yeniliyi, elmi-praktik əhəmiyyəti və aprobasiyası göstərilmişdir.

**Dissertasiyanın I fəsli "Ərdəbil bölgəsinin coğrafi şəraiti və siyasi tarixi" adlanır** və üç yarımfəsildən ibarətdir.

**I fəslin birinci yarımfəsli** Ərdəbil bölgəsinin coğrafi şəraitinə həsr olunub. Ərdəbil vilayəti 37°, 45′ ilə 39°, 42′ en dairə paralelləri arasında və 37°, 30′ ilə 48°, 55′ uzunluq dairə paralelləri arasında, İran İslam Respublikasının şimal qərbində yerləşir. En dairəsinin genişliyi, oroqrofik quruluşu, Xəzər dənizi bu vilayətə özünə məxsus özəlliklər bəxş etmişdir. Şimalla cənub nöqtəsi arasındakı məsafə 290 km, şərq nöqtəsilə qərb nöqtəsi arasındakı məsafə isə 132 km olan Ərdəbil bölgəsi uzunsov bir vilayətdir. Vilayətin ümumi sahəsi 17880.918 $km^2$.

İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasındakı sərhəddin 282.5 kilometri Ərdəbil vilayətinə aiddir ki, bunun da 159 kilometrini Araz və Balharı çayları təşkil edir. Ərdəbil vilayətinin ən məşhur və ən böyük sıra dağları Savalan və Talış dağlarıdır.

Ərdəbil vilayətinin dağları və dağlıq zonaları arasında və relyeflərin təkamül prosesi nəticəsində böyüklü- kiçikli müxtəlif düzlər və ovalıqlar əmələ gəlmişdir. Onların ən mühümləri aşağıdakılardan ibarətdir: Muğan düzü, Meşkin düzü, Ərdəbil ovalığı, Xalxal düzü.

Ərdəbil vilayətinin ən böyük çayı Arazdır. Qarasu vilayət daxili ən uzun və ən böyük çaydır.

Vilayətin çoxiqlimli olmasına baxmayaraq Ərdəbil öz soyuqluğu ilə seçilən bir vilayət kimi tanınır. Nəzərə alsaq ki, vilayətin 20 faizinin hündürlüyü 2000 metrdən artıqdır, onda belə qənaətə gəlmək olar ki, bir çox zonalarında ilin yarısından çoxu şaxtalı hava hakim olur.

Yağıntı orta hesabla 250 mm ilə 600 mm arasındadır. Yaz və qış yağmurlu fəsillərdir. Ən çox yağıntı isə yaz fəslində olur.

Ərdəbil şəhəri ətrafında faydalı qazıntıların olması, Yaxın və Orta şərqi şimal ölkələri ilə birləşdirməsi, strateji və ticarət yollarının bu şəhərdən keçməsi hələ qədim dövrlərdən onun iqtisadiyyatına böyük təsir göstərmişdir.

**I fəslin ikinci yarımfəslində** bölgənin bəzi toponimləri, o cümlədən Ərdəbil və Varsan toponimləri araşdırılır. Bölgənin adının onun başlıca şəhərinin Ərdəbilin adından götürüldüyü, orta əsr mənbələrində bu şəhərin "Bazan-piruz", "Firuz-abad", "Firuz-ram", "Bazan-Firuz", "Firüzgərd", "Əndərabad", "Azərbəhmən", "Ərtəvit", "Ərdvid", ya "Ərbəl" adı ilə qeyd olunduğu bildirilir. Bəzi tədqiqatçıların fikrincə, bu şəhər "Ərdəbil ibn-Ərəs ibn-Əlməti ibn-Yunan ibn-Amer ibn-Şaleh ibn-Ərməxşəd ibn-Salem ibn-"Nuh"un saldırdığı şəhərlərdən biridir və onun adı ilə əlaqəlidir.

Müxtəlif lüğətlərdə, qədim əsərlərdə Varsan sözü (varsak, varsaz) müxtəlif şəkildə izah edilir. Mənbələrdə Varsak sözü yer adını, türk tayfasını və bu tayfaya aid əşyanın adını bildirir.

Hüdud əl-Aləm Varsanı nemətlərlə bol şəhər adlandırır. Əbülqasim Zəməxşəri bildirir ki, Varsan "yurd", "şəhər" deməkdir.

**Fəslin üçüncü yarımfəsli** bölgənin siyasi tarixinə həsr olunub. Ərəb fəthləri dövründə Ərdəbil Azərbaycanın mərkəzi və ordu qərargahıidi. Ərəb sərkərdəsi Huzayfa 643-ci ildə dinc yolla Ərdəbili xilafətə birləşdirdi. Araz çayı sahilində yerləşən Bəcrəvandan başlayaraq Miyanəyə, həmçinin Marağa şəhəri yaxınlığında yerləşən Şiz şəhərinədək Ərdəbil vilayətinə tabeidilər. Xilafət Ərdəbildə və Azərbaycanın digər yerlərində möhkəmlənmək üçün köçürmə siyasəti yeridir, Bəsrə, Şam və Kufə vilayətlərindən ərəb tayfa ittifaqlarını köçürüb Azərbaycanda məskunlaşdırırdı. Onlar məskunlaşdıqdan sonra müxtəlif yollarla özlərinə torpaq əldə etdilər. Yerli əhalidən olan bəziləri canlarının qorxusundan torpaqlarını zahirən könüllü şəkildə gəlmələrin mülkiyyətinə verib özləri onlara cütçülük etməyə başladılar. Bütün bunlar Azərbaycanda xürrəmilər hərəkatına səbəb oldu. Xürrəmilər Azərbaycanın xeyli hissəsini xilafətin hakimiyyətindən azad etdilər. Bu zaman Ərdəbil bölgəsi hadisələr burulğanına cəlb olunmuş ərazilərdən idi.

Babək hərəkatının məğlubiyyətindən əlli il sonra Azərbaycanda Sacilər dövələti yarandı. Sacilər dövlətinin ilk paytaxtı Marağa şəhəri idi. Sonralar paytaxt Ərdəbil şəhərinə köçürüldü və Sacilər Ərdəbildədə öz adlarına pul kəsdirdilər.

Yaxın və Orta Şərqdə yaranmış siyasi hərcmərclik şəraitində Sacilər dövləti də uzun zaman davam gətirə bilmədi və onu digər Azərbaycan feodal dövləti -Salarilər dövləti (941-981) əvəz etdi.Daha sonra Ərdəbil bölgəsi Rəvvadilər, Böyük Səlcuq, Azərbaycan Atabəyləri dövlətlərinin tərkibində oldu. Eldənizlər sülaləsinin hakimiyyətini son dövründəƏrdəbil əhalisi gürcülərin, daha sonramonqolların basqınlarına məruz qaldı. Ərdəbil şəhərini zəbt edən monqollar onu viran qoydular, qaçıb canlarını qurtaran adamlardan başqa bütün əhalini öldürdülər. Lakin bu hadisədən az bir müddət sonra şəhərdə yenə canlanma başladı. Elxanılər dövlətində Təbriz paytaxt oldu. Ərdəbil mühüm ticari və mədəni mərkəzlərdən biri kimi əhəmiyyətini saxlamaqda idi.

Teymurilərin vaxtında Səfəvilərin ulu babası Şeyx-Səfiəddinin xələfi XacəƏli ilə Əmir Teymurun görüşü Ərdəbildə oldu. Bununlada Ərdəbilin qızıl dövrü Səfəvilərlə başlandı. Şeyx Səfiəddinin görkəmli bir arif kimi yüksəlişi Olcaytu və Əbu Səid elxaninin dövrünə təsadüf edir. Zamanın hakim və sultanları onun ziyarətinə gəlirdilər, eləcədə böyük sərkərdə və hökmdar Əmir Teymurda onu sədaqət və ixlasla sevmiş, qəbrini ziyarət etmişdir. Əmir Teymur Şeyx-Səfiəddinin xələfi XacəƏlinin cismani gücünə və qoçaqlığına məftun olduğuna görə Diyarbəkir döyüşündən tutduğu əsirlərin bir qismini

azad etmiş, azad olunan əsirlər xacənin müridlərinə qoşulmuş və uzun müddət səfəvilərin fədailəri olmuşlar.

Şeyx Cüneyd dövründə səfəvilərin nüfuzu xeyli güclənir.Amma, onunŞirvana yürüşü uğursuz olmuş, özü isə həlak olmuşdur. Şeyx Heydərinatasının yarımçıq qalan qayələrini başa çatdırmaq niyyəti də uğursuzla nəticələndi. Şirvanşah Fərrux Yasarla döyüşdə qızılbaşlar məğlub oldu və Şeyx Heydərdə atası kimi məqsədinə çatmadan həlak oldu.

Səfəvilərin qarşıya qoyduqları məqsədi İsmayıl həyata keçirdi, Şirvanşahlara və Ağqoyunlu hökmdarlarına qalib gələrək 1501 –ci ildə Azərbaycan Səfəvilər dövlətini yaratdı.Təbriz paytaxt elan edildi, amma Ərdəbil şəhəri Səfəvilər dövlətinin süqutunadək xüsusi əhəmiyyətini və mövqeyini saxladı.

Dissertasiyanın II fəsli **"Şəhər yerləri və qalalar"** adlanır və iki yarımfəsildən ibarətdir. **"Şəhər yerləri"** adlanan birinci yarımfəsildə Ərdəbil bölgəsinin orta əsr şəhərləri və onların xarabalıqlarından bəhs edilir. Məlum olduğu kimi, arxeoloji abidələr arasında yaşayış məskənlərinin xarabalıqları özlərində daha zəngin və tarixi əhəmiyyətli informasiyanı cəmləşdirməsi ilə digər kateqoriyalara nisbətən öndə durur. Yazılı mənbələrin araşdırılması və arxeoloji axtarışların nəticəsi göstərir ki, Ərdəbil bölgəsinin orta əsrlərə aid şəhərlərinin əksəriyyəti bölgənin iqtisadi cəhətdən daha inkişaf etmiş və əhali ilə sıx məskunlaşmış, həmçinin, magistral ticarət yolları keçən strateji cəhətdən əhəmiyyətli olan ərazilərində yerləşmişdir. Başqa Şərq ölkələrində olduğu kimi, Ərdəbil bölgəsində də şəhərlər sənətkarlıq və ticarət mərkəzləri kimi əsasən IX-X əsrlərdə formalaşmış, sonrakı iki əsrdə, XI-XII əsrlərdə çiçəklənmə çağını keçirmişdir.Azərbaycanın digər bölgələrində olduğu kimi, bu bölgədə orta əsr şəhərləri əsasən üç sosial-iqtisadi topoqrafik hissədən-narınqala (iç qala), şəhristan (içəri şəhər) və rabaddan (bayır şəhər) ibarət idi.

Ərdəbil bölgəsində orta əsr urbanizasiya problemləri, şəhərsalma məsələləri hələlik lazımi səviyyədə tədqiq olunmamışdır. Bununla belə yazılı qaynaqların və arxeoloji tədqiqatların nəticələrinin müqayisəli təhlili Ərdəbil, Bərzənd və Varsan şəhərlərinin bölgədə başlıca şəhərlər olduğunu təsdiqləməyə imkan verir. Ərdəbil şəhəri IX-X əsrlərdə Azərbaycanın ən böyük şəhəri hesab olunurdu.Bu dövrdə, Ərdəbil şəhərinin şəhristanı planda kvadrata yaxın olub, yarımdairəvi bürclərlə möhkəmləndirilmiş qala divarları ilə əhatə olunmuşdu. Şəhər geniş sahəli rabada malik idi. Bazar meydanı rabadın şimal-şərqində yerləşirdi. Baş bazar meydanının rabadda yerləşməsi bir tərəfdən Ərdəbilin inkişaf etmiş rabadının olmasından, digər tərəfdən isə ticarətin geniş vüsət almasından irəli gəlirdi.Ümumiyyətlə, Ərdəbil şəhəri üç topoqrafik hissədən ibarətidi.

Ərdəbil şəhərinin tarixini, şəhərin ayrı-ayrı inkişaf mərhələlərini müəyyənləşdirmək, onun maddi mədəniyyətini səciyyələndirmək baxımından Came məscidinin və Şeyx-Səfi dini-xatirə kompleksinin ərazisində keçən əsrin son qərinəsi və XXI əsrin ilk onilliyində aparılmış arxeoloji tədqiqatların mühüm elmi əhəmiyyəti vardır.Came məscidi bınasının qalıqları, şəhərin şimal-şərq hisəsində Abdulla-şah və Pir-Şəmsəddin məhəllələrinin qovşağında hündürluyu təxminən 5 metr olan süni təpənin üzərində yerləşır.

Məscidin şərq və şimal tərəflərində aparılan arxeoloji qazıntıları zamanı köhnə günbəzxana sütunları, IX-X yüzilliklərə aid kitabələr tapılmışdır. Ümumiyyətlə arxeoloqların əldə etdikləri nəticələrə görə məscidin əsas binası Səlcuqlar dövründə köhnə bir binanın xarabalıqları üzərində tikilmişdir.

Ərdəbil Came məscidi Səlcuqlar dövründə günbəzxana və önündə ona bitıişik bir eyvandan ibarət idi.Binanın bütün divarları hündürlüyü 1,9 metr və eni 0,8 metr ölçülü dalanların vasitəsilə kəsilir.

Aparılan arxeoloji qazıntılar Camenin binasının yalnız günbəzxana və eyvandan ibarət olmadığını, əlavələri və digər hissələri ilə geniş bir sahəni əhatə etdiyi müəyyən olunmuşdur. Həmin möhtəşəm bina zaman ötdükcə dağılıb son yuzilliklərin torpaq qalağı və şeyx qəbirləri altında basdırılmışdır.

Qırmızı kərpiclə hörülmüş,silindrik biçimli,iri gövdəli minarə camenin əsas binasının qərb divarından 16,40 metr aralıda yerləşir. Vaxtilə minarə məscid binası ilə əlaqəli olmuş, amma sonradan məscid kompleksindəki bəzi hissələrin uçub dağılması nəticəsində hazırda təklənmiş halında məscidin binasından uzaq düşmüşdür.

Səlcuq minarələrinin səciyyəvi əlamətlərini əks etdirən minarənin səkkizguşəli alçaq oturacağı, kərpic bəzəklərə malik göz oxşayan hündür silindr gövdəsini öz üzərinə almışdır. Konstruktiv baxımından üç əsas: oturacağ, gövdə və başlıq hissələrindən ibarət olan minarənın zaman ərzində başlığı uçub tökülmüşdür.Hazırda hər yanın uzunu 2,1 metr qırmızı kərpic və gəç-ahəng məhlulu ilə işlənən səkkizguşəli oturacağı, diametrı 5,5 metr iri və qalın silindr gövdəsı qalmışdır.

Məscid minarəsının bu günkü hündürlüyü 8,32 metrdir. Minarənin içərisinə, şimal-şərq tərəfində yerləşən giriş qapısından daxil olmaq mümkündür.

Şeyx-Səfi kompleksi bir neçə əsr ərzində yenidənqurma və təmirlərə məruz qalmış mürəkkəb memarlıq kompleksi olmaqla dünya memarlığında özünə məxsus yer tutur. Kompleks, memarlıq quruluşunun yüksək bədii xüsusiyyətləri ilə bərabər, kaşıdan düzəldilmiş nəbati ornamentlərinin və daxili tərtibatının zənginliyi ilə də müstəsna bir abidədir. İncəsənət tarixində görkəmli bir sənət nümunəsi kimi məşhur olan Şeyx-Səfi xalçası da XVI əsrdə bu kompleks üçün toxunmuşdur.

Şeyx-Səfi kompleksinin başlıca özəyini xanəgah təşkil edir. Digər monumental binalar xanəgaha uyğunlaşdırılmış, planlaşdırma prinsipləri və memarlıq kompozisiyasının vahidliyi qorunub saxlanılmışdır. Kompleksə daxil olan Şeyx-Səfi türbəsi, ona birləşən məscidlə Azərbaycan memarlığının incilərindən olmaqla qülləvari tikililərin ən gözəl nümunələrindəndir. Tədqiqatçıların fikrincə, tikililərdən türbə və səkkizkünclü məscid kompleksin ən erkən binaları olmaqla XIII-XIV əsrlərdə inşa edilmişdir. Abidənin qərb tərəfində aparılmış arxeoloji qazıntılar bu ehtimalı təsdiqləmişdir.

Şeyx-Səfi türbəsi şəhərin simvolu olaraq orta əsrlərdən bu günümüzə öz möhtəşəmliyini qoruyub saxlaya bilib.

Qazıntılar nəticəsində xanəgah, yeni çilləxananın bir hissəsi, şərbətxana öyrənilmiş, çoxlu kaşı, yazılı lövhələr, səfəvi sikkələri, elxanilər və səfəvilər dövrlərinə aid çoxlu saxsı məmulat tapılmışdır. Müəyyən edilmişdir ki, kompleksin ən erkən binası olan xanəgah Şeyx-Səfiəddinin dövründə tikilmişdir. Şeyx-Səfi türbəsi xronoloji baxımdan kompleksin ikinci tikilisidir. Türbə hazırkı görünüşünü isə XVI əsrdə almışdır. Türbənin silindrik gövdəsi şirli kərpiclərlə "Allah" sözü ilə naxışlanmışdır. Şeyx-Səfi kompleksinin müxtəlif dövrlərə aid tikililərinin toplu halında formalaşması Şah-Təhmasib dövründə baş vermiş, Şah-Abbas yeni tikililərlə onu daha da zənginləşdirmişdir.

Arxeoloji qazıntıların nəticələrinə əsasən aşağıdakılar müəyyənləşdirilib:

a) Kompleksin ən qədimtikilisii olan xanagah Şeyx Səfinin dövründə inşa edilib.

b) Şeyx Səfi məqbərəsi toplunun ikinci binasıdır.

c) Şeyx Səfi və Şah İsmayıl Səfəvinin məqbərələri vaxtilə bir-birindən ayrı binalar olub.

d) Şeyx Səfi kompleksinin binaları müxtəlif dövrlərəaid olub ilk dəfə Şah-Təhmasib tərəfindən toplu şəkilinə salınmışdır. Sonralar da Şah-Abbas topluya önəmli binalar artırmış, kompleks bir-birinə bağlı həyət ətrafında düzülmüş binalardan ibarət forma almışdır. Bu kompleksə ŞeyxSəfi türbəsindən başqa Qəndilxana yaxud namazxana, Şahnişin, I Şah-İsmayıl türbəsi, Hərəmxana, Çinixana və s. daxildir.

Ərdəbil bölgəsinin orta əsr şəhərləri arasında Varsan bölgənin ən şimal şəhəri idi. "Hüdud əl-Aləm" Varsanı nemətlərlə zəngin şəhəri adlandırır.

İbn-Hövqəl Varsan şəhərini Azərbaycanın "Miyanəc, Xunəc, Daxırqan, Xoy, Səlmas, Mərand, Təbriz, Rəqan, Bərzənd, Beyləqan, Cabirvan kimi şəhərlərin sırasında..." çəkir və bildirir ki, onlar "genişlikləri və iqtisadi inkişafi baxımdan bir-birlərinə yaxındırlar". Varsanın tamamilə uçulub dağılması və arxeoloji qazıntıların azlığı ucbatından onun lokalizasiyası tam aydın deyildir.

Bununla belə şəhər haqqında əldə edilən mənbələrin az olmasına baxmayaraq regiyonun coğrafi vəziyyəti bizə belə bir nəticə çıxarmağa imkan verir ki, Varsan Azərbaycanın mühüm Muğan şəhərlərindən biridir. Arazın cənub sahilində, Ultan kəndinin 500 metr qərb tərəfində, Parsabad şəhərinin 15 km cənub qərbində yerləşən Ultan qalası Varsan şəhəri ilə əlaqələndirilir.Ultan arxeoloji sahəsi vaxtı ilə iki hissədən ibarət bir şəhərmiş. Şəhərin bir hissəsi (Şəhristan yaxud Qala) hasara salınıbmış, o biri hissəsi isə hasardan kənarda olub (Rabad adlandırıla bilən ətraf hissə).

Bu şəhər xarabalıqlarının qala divarları ilə müdafiə olunan sahəsi düzbucaq biçimdə olub 33 hektar sahəni əhatə edir. Düzbucaqlının küncləri əsas coğrafi cəhətlərə istiqamətlənmişdir. Qalanı eni 10 m-ə çatan müdafiə xəndəyi əhatə edir. Şəhərin qala divarlarından bayırda cənub-qərb, cənub və şərq istiqamətlərində genişlənən rabad yerləşir. Rabadla birlikdə Ultan şəhər xarabalıqlarının ümumi sahəsi 70 hektara yaxındır.

Arxeoloji qazıntılar nəticəsində mədəni təbəqənin stratiqrafiyası müəyyənləşdirilmiş, şəhər istehkamları ilə bağlı bir çox suallara aydınlıq gətirilmişdir. Qalınlığı 5 m-ə çatan mədəni təbəqə yatımında dörd inşaat dövrü müəyyənləşdirilmiş, I və II inşaat qatlarında sasani və ərəb fəthləri dövrünün maddi mədəniyyət nümunələri, III və IV inşaat qatlarında isə IX-XI əsrin əvvəllərinə aid faktik materiallar əldə edilmişdir.

İstehkam qalıqlarının tədqiqindən məlum olmuşdur ki, şəhərin ilk qala divarı çiy kərpicdən hörülmüş, qalınlığı 4 m olmuşdur. Bu qala divarı sel ilə dağıdıldıqdan sonra onun qalıqları üzərində nisbətən kiçik ölçülü kərpiclərdən yenisi inşa olunmuşdur.Qala düzbucaq biçimdə olub 400×800 metrlik sahəni əhatə edir. Ətrafına çəkilən çiy kərpicdən tikilmiş hasarın eni 5.92 metrdir. Qala divarının zəruri yerlərində böyük bürclər tikilmişdir. Qala divarlarının ətrafında isə enli və dərin xəndək qazılmışdır. Qalanın içində kiçik binaların qalıqları olan təpəciklər vardır.

Qazıntılar zamanı əldə olunan arxeoloji materiallar əsasən saxsı qab parçalarından ibarətdir və daha çox orta əsr Beyləqan şəhərinin saxsı məmulatı ilə oxşarlıq təşkil edir. Arxeoloji qazıntıların nəticəsinə və faktik materialların təhlilinə əsaslanaraq tədqiqatçılar bu şəhərin sasanilər dövründə salındığını və burada XI əsrin əvvəllərinədək həyatın mövcud olduğunu bildirirlər.

Muğan düzündə aparılan arxeoloji araşdırmalara əsasən UltanQalası ən böyük arxeoloji sahədir. Digər abidələrdən fərqli olaraq kənd təsərrüfatı, sənaye və digər sahələrin dağıdıcı fəaliyyətlərinəaz məruz qalıb.

Bərzənd şəhəri Azərbaycanın orta dərəcəli şəhəri idi və Ərdəbil vilayətində, Muğan mahalında yerləşirdi. Bərzəndin İslamdan əvvəlki keçmişinə dair heç bir məlumatımız yoxdur. Onun adı Xürrəmdin Babək

hərəkatı ilə əlaqədar çəkilir. İbn Xordadbehin yazdığına görə Babəklə döyüşməzdən əvvəl Afşin öz qoşun qərarğahına çevirdiyi Bərzənddə hərbi istehkamat yaratdı.

Qeyd edilməlidir ki, bütün tədqiqatçılar Bəzzin Ərdəbil rayonunda yerləşdiyini bildirirlər.

“Hüdud əl-Aləm”in müəllifi Bərzəndi şən, abad, bollu axar suları, geniş əkin sahələri, firavan məhsulları və yundan hazırlanan gözəl və əla geyimləriolan şəhər kimi vəsf edirdi. Müqəddəsi də elə həmən zamanda onu kiçik, lakin abad yer, Azərbaycanın əmtəə-ticarəti mərkəzi kimi təqdim edir. Qəbul olunmuş dəlillərlə sübut edilir ki, Bərzənd monqolların yürüşlərindən əvvəl, artıq öz əhəmiyyətini itirmiş və XIV əsrdə viranədən başqa ondan daha heç bir şey qalmamışdı. Həmdullah Qəzvini Bərzəndin yerində yalnız kiçik bir kənd qalmış xaraba bir şəhər kimi təsvir edir. “Bərzənd dördüncü iqlimə aid ... şəhərdir. Xaraba qaldıqdan sonra Abbasilərin qulamı Afşin onu yenidən bərpa etdi ... . lakin yenədə xarabadır. Indi yalnız kiçik bir kənddir. Havası isti olan yerdir. Suyu hündür yerin bulaqlarından təmin edilir. Məhsulu taxıldan ibarətdir”

Zəmanəmizədək gəlib çatan dağınıq mənbə məlumatları artıq sübut edir ki, Hazan kəndində arxeoloji sahənin Bərzənd şəhərinin xarabalıqları ilə əlaqələndirilməsi ehtimalı vardır.

Bu yaşayış yerinin ərazisindən tapılmış arxeoloji materiallar o qədər də çox olmayıb əsasən şirli və şirsiz saxsı qablarla təmsil olunmuşdur. Saxsıların istehsal tərzinə gəldikdə isə orta dərəcəli, incə və kobud növlərə bölünür. Əldə edilmiş saxsı qab fraqmentləri kasa, boşqab, kiçik küzə, parç və nadir hallarda səhəng kimi böyük qablara aiddir. Bəzək baxımından şirsiz saxsılar iki qrupa, sadə və bəzəkli saxsılara bölünür. Saxsıların suburaxmama qabiliyyətini və möhkəmliyini, habelə gözəlliyini artırmaq üçün içəri və çöl üzləri anqoblanmış və sığallanmışdır.

Ümumiyyətlə, abidə ərazisindən toplanan saxsılar həm naxış, həm də forma baxımından son dərəcə ustalıqla hazırlanmış və bölgənin islam dövrünə aid digər saxsılarından fərqlənirlər. Toplanmış yerüstü arxeoloji materiallar əsasında yaşayış yeri erkən və inkişaf etmiş orta əsrlərə aid edilmişdir.

**II fəslin “Qalalar”** adlanan ikinci yarımfəslində bölgənin arxeoloji axtarışlarla qeydə alınmış qalaları araşdırılır.

Ərdəbil əyaləti mərkəzi şəhərindən 43-kilometr aralıda, Korabazlı kəndi yaxınlığında yerləşən Boynu-yoğun qaladaarxeoloji tədqiqat işləri başlıca olaraq onun içqalasında, ətəyındəki təpə və kənarlarında aparılmışdır.Qala cənub-qərb tərəfdə uçurumlu dərə, şimal qərb tərəfdə sərt enişlə hüdudlanır. Şərq tərəfdən ətrafına dairəvi formalı qüllə-divarlar çəkilmişdir. Bəzi bürcləri müstəqil müdafiə üçün ucaldılmışdır. Sonralar qala daha keçilməz olsun deyə,

qala divarının ətrafında enli dərin xəndək qazılmışdı.Qala ərazinin relyefinə uyğunlaşdırılmışdır. Ümumiyyətlə, Boynu-yoğun qalasi uzun müddətli müdafiə üçün inşa olunmuş, daimi döyüşçü və qorucuları, cəbbəxanası, qida ehtiyatı anbarları, altı ədəd su anbarına malik su təchizatı şəbəkəsi, yaşayış evləri, müxtəlif qurğuları olan və ümumiyyətlə müstəqil idarə olunan strateji əhəmiyyətə malik qala idi.

Müdafiə divarlarının qalınlığı 2-5 metrdir. Qalanın bəzi nüfuz edilə biləsi yerlərində divarların qalınlığı daha çoxdur. Qalanın cənub-qərb tərəfində iri darvaza mövcud idi. Bu darvazadan dəvə karvanlarının qalanın içinə girişi və çıxışına, başqa gəliş-gedişlərə nəzarət edilir və yoxlanırdı. Həmin yerdə daş dəyirmanı nişanı və izi qalmışdır. Onun böyük əhəmiyyəti olduğunuda sezmək olur. Hicri ilk yüzilliklərdən başlayaraq Səfəvilər sülaləsinin sonlarınadək qalanın iç və bayır binalarında ardıcıl şəkildə yaşayış davam etmişdir.

Qalanın ətəyındəki təpədə qəbiristanlıq yerləşir. Abidənin ərazisindən toplanmış yerüstü arxeoloji materiallar əsasən şirsiz və şirli qabların qırıqlarından ibarətdir.

Beləliklə, tədqiqatlar orta əsrlərdə buradakı yaşayış məskəninin qala şəhər xarakteri daşıdığını ehtimal etməyə əsas verir.

Köhnəqala Ərdəbil bölgəsininMeşkin rayonunda yerləşir. Onun plan quruluşu sasani dövrü qalalarını və ya erkən karvansaraların planını xatırladır.

Hərb sənətinin inkişafı böyük dairəvi və bir-birinə yaxın bürclər tikilməsini, möhkəm divarlar çəkilməsini, istər qalanın içində, istərsə də qaladan kənarda düşmənin qarşısını almaq, yaxud ən azı onları ləngitmək üçün lazımi tədbirlər görülməsini tələb edirdi. Topoqrafik baxımdan Köhnəqala 50 metr hündürlüyü olan, Xiyov çayının sol sahilində kahamar bir zonada yerləşən təbii bir təpə üzərində ucaldılıb. Qalanın müdafiə gücünü və sarsılmazlığını təmin etmək üçün təbii və coğrafi şəraitdən istifadə olunmuşdur. Onun üç tərəfi sərt enişlə çaya qovuşur. Hal-hazırda son dərəcə dağıntıya məruz qalmış qalanın vaxtı ilə nə qədər möhkəm olduğunu müşahidə etmək olur. Qalanın planından məlum olur ki, burada hökmdar iqamətgahı olmamış və qala yalnız hərbi məqsəd daşımışdır. Qalanın altı bürcü varmış. Bürclər dairəvi biçimli olub diametrləri 5,7 m-10 m arasında dəyişir. Qalın divarlar çiy kərpicdən tikilmiş və kiçik hücrələrə malikdir. Bürclər daş, kirəmit və əhənglə tikilmişdir. Müəyyən kərpic hörmələri dekorativ xarakter daşıyır. Qala divarının hündürlüyü içəridən 4 metr, bayırdan isə 8 metrdir. Köhnəqala çöl qalası növündəndir. Planı dördbucaq (102 x 250 metr), ətraf mühitdən ucada tikilmiş və vaxtı ilə böyük əhəmiyyətə malik olmuşdur. Qala ilk dəfə 1977-ci ildə Əli Vəli Nuri və Əqil Abidi tərəfindən araşdırılmışdır.

Yekunda qeyd edək ki, aparılan tədqiqat qədim qalanın qalıqları üzərində islam dövründə yenidənqurma işləri aparıldığını və bu qaladan hətta yeni dövrdə də istifadə edildiyini təsdiqləyir. Hal-hazırda isə qaladan yalnız uçuq divarlar qalıb.

Meşkinin şimalında Kənçübə kəndinin qərb tərəfindəki ən yüksək zirvələrdən birinin üzərində Qəhqəhə qalası yerləşir. Qalanın yeri çox məharətlə seçilib. Qalaya yalnız təhlükəli bir cığır vasitəsilə qalxmaq mümkündür. Ətrafında sərt qayalar və uçurumlar vardır. Təbii maneələr olmayan yerlərdə isə (qərb hissəsində)enli, uca və qaravul bürcləri olan möhtəşəm divarlar ucaldılıb.Qeyd etmək lazımdır ki, qalanın planı mükəmməldir. Belə ki, əsrlər ötsə də ətrafa nəzarət və topoqrafik xüsusiyyətlər baxımından analoqu yoxdur. Az bir qüvvə ilə qalanın müdafəsi mümkün idi.

Bu arxeoloji kompleksə divarlar, darvaza, qaravul bürcləri, yaşayış binaları, qərargah, silahlıların və qaravulçuların dincəlmə yeri, ərzaq və taxıl anbarları, su anbarı və dəyirman daxildir.

Qəhqəhə qalası planda dördküncdür. Onun şərq və qərb istiqaməti 100 metr, şimal və cənub istiqaməti 500 metr, sahəsi isə 50000 $m^2$, yaxud 5 hektardır. Qalanın əsas divarında dörd bürc, darvazasında isə iki beşkünc bürc vardır. Bu arxeoloji sahədəki qalıqlar göstərir ki, qalanı qorumaq üçün digər bürclər də varmış. Bürclər müxtəlif həndəsi formalarda tikilibmiş. Təəssüf ki, onların bəziləri uçulub dağılmış, qalanlarıisə böyük dəyişikliklərə məruz qalıblar.

Arxeoloji faktlar göstərir ki, ilkin islam əsrlərindən etibarən Səfəvi hakimiyyətinin sonuna kimi istər qala sahəsində, istər ondan kənar sahələrdə yaşayış ardıcıl şəkildə davam etmişdir.

Qalanın ən yüksək hissəsi cənub tərəfindədir. Burada torpaq çöküntüləri götürüldükdən sonra 24×22 metrlik bir bina aşkar edilmişdir. Müəyyən olunmuşdur ki, bina qalanın qaravul və gözətçiləri üçün tikilmişdir. Həmin binanın yaxınlığında ətrafa səpələnmiş 21×21 sm ölçülü kərpiclər və divar qalıqları 11×5 metrlik bir binanın olduğunu göstərir. Qalanın zindanı şərq hissənin qurtaracağında yerləşir. 18 su anbarının qeydə alınması qalada xeyli adamların yaşadığını və ən çətin şəraitdə belə onların ehtiyaclarının təmin olunmasını təsdiqləyir.

Qalanın məşhur dustaqlarından Alqas Mirzə Səfəvi (Şah İsmayılın ikinci oğlu), İsmayıl Mirzə (ikinci Şah İsmayıl), Sam Mirzə (Şah Təhmasibin qardaşı) və Xanəhməd Gilaninin (Gilanın valisi) adlarını çəkmək olar.

Xalxal şəhərinin 5 km-liyində yerləşir. Arxeoloji tədqiqatlar nəticəsində mədəni təbəqədə Səlcuq, Elxani, Qaraqoyunlu və Səfəvi dövrünün maddi mədəniyyət qalıqları aşkarlanmışdır. Bu qablar əsasən saxsı qab

fraqmentlərindən ibarətdir. Araşdırmalar nəticəsində Əndəbil qalasının bölgədən keçən karvan yollarının mühafizəsi üçün inşa edildiyi müəyyənləşdirilmişdir. Qala, Səlcuqlar dönəmibdə inşa edilmiş, orta əsrlərin sonunadək – daha dəqiq desək Rus – İran müharibəsinədək istifadə olunmuşdur.

Dissertasiyanın **"Kənd tipli yaşayış yerləri"** adlanan III fəsli Ərdəbil bölgəsinin kənd nahiyəsinə həsr olunub. Orta əsrlərdə Ərdəbil bölgəsinin böyük kənd nahiyəsi olmuşdur. Arxeoloji axtarışlar həmin kəndlərin bəzilərinin qalıqları aşkarlanaraq tədqiqata cəlb edilib. III fəslin birinci yarımfəsli **"Geniş sahəli böyük kənd tipli yaşayış yerləri"** adlanır. Buraya Gənzə, Viyənd, Gorantəpə, Yelsuyu yaşayış yerləri daxildir.

Gənzə kənd tipli yaşayış yeri Ərdəbil bölgəsinin Səreyn rayonu ərazisində, Savalan dağı ətəklərindəki dərələrin yaxınlığında yerləşir. Ərazi su mənbələrinin zənginliyi ilə fərqlənir. Bu yaşayış yeri ilk növbədə "mağara ev" və ya "kühül ev" adı ilə məlum olan müxtəlif ölçülərdə və qeyri-ardıcıl yerləşmiş evlərin olması ilə fərqlənir.Abidənin ərazisində çiy kərpic, bişmiş kərpiclə hörülmüş evlər tikilmişdi. Mağara evlərəsasən təpənin enişində ovulmuşdular. Əhalinin təsərrüfat məşğuliyyəti əkinçilik və maldarlıq idi.

Mağara evlərbarədə zəruri olan məlumat xarakterli materiallar bir başa etnoqrafik və arxeoloji araşdırmalardan, dini nişanə və faktorlardan alınmışdır. Qədim zamanlarda müqəddəs tapınma yerlərini müqəddəs suların, bulaqların və kəhrizlərin yanında tikirdilər. Ehtimal etmək olar ki, mağara evlərinin ayrıca dini, hərbi kimi funksiyaları Islam dövrünə qədər ola bilərdi. Sonralar, xüsüsilə orta yüzilliklərdə zahidlik vərdişlərinə, dərvişlərin çillə saxlamalarına, qrup şəklində zikr kimi dini ənənələrin icrasına, süfi xanəqahlarına və bu kimi başqa dini funksiyaları daşıması da mümkündür.

Ümumiyyətlə, ilkin arxeoloji tədqiqatların nəticələrini nəzərə alaraq Gənzə yaşayış yerinin mağara evləri haqqında belə bir nəticəniyə gəlmək olar ki, onlar İslamdan əvvəlki dövrlərə dini xarakter daşımış, ibadət və dini mərasımlərin orada keçirilməsi üçün nəzərdə tutulmuşdur. Sonradan süfi təriqətlərinə mənsub cəryanlar xanəqah kimi oradan istifadə etmişdilər. Xüsüsilə çillə saxlamaq kimi mərasimləri üçün daha əlverişli olmuşdu. Əldə olunan az miqdarda məlumatlar göstərir ki, mağara evlər oturaq əkinçilərin, və yaxud elatların yataq və ya oturaq məskəni kimi də istifadə olunmuşdur.

Viyənd-kahralan kəndindən iki kilometr aralıda, Balıqlı çayın yatağından 50 metr hündürdə yerləşən təpədə də mağara evi mövcuddur. Onun içəri fəzası üçbucaq oturacaqlı piramida formasındadır. Evin 1,8 metr ölçülü ən uca və ən hündür yeri girişin arxa tərəfidir.Bundan əlavə, iki təpənin arasındakı gədiyin döşəməsində əksər hallarda müxtəlif astana və taxçaları ilə bir neçə

hissədən ibarət evlərin qalıqları qeydə alınıb. Onların çoxusunun damı uçub tökülmüş, lakin daş divar və girişləri salamat qalmışdır.

Kənddə dağın şimal sırtında çoxlu miqdarda daş hörüklü evlərin qalıqları mövcuddur. Onların divarlarının aşağı hissəsi oturacağına şaqulidir; yuxarıda isə bacalı piramidaya çevrilir. Başqa bir tərəfdən də bəzi xüsüsi vəziyyətlərdə insanın buranın daimi yaşayiş yerinə çevrilməsi kimi funksiya daşıması da mümkündür. Beləliklə xüsüsi siyasi şərait bu kimi qurğuların yaranmasına səbəb ola bilərdi.

Maraqlı bir incəlik də budur ki, İslam dövründə tapınma və dəfn etmə funksiyası daşıyan qayaüstü memarlığın inkişafı sufizmin inkişafı ilə əlaqədar olmuşdur. Belə ki, monqolların İrana yürüşü nəticəsində törənən xarabalıqlar və əhalinin məruz qaldığı acınacaqlı vəziyyətdən xilas olmaq üçün yeganə yol sufiliyə sığınmaq idi. Çoxları mənəvi təskinlik tapmaq üçün bu təfəkkürə yönəldi. Çox keçmədən Elxanilərin özləri də sufiçiliyə cəlb oldular. Sufilik teymurilər dövründə çiçəklənərək Səfəvilər dövrünə kimi davam etdi. Ehtimal etmək olar ki, bu ucqar vilayət, Ərdəbil sufilərinin gizli yığıncağı üçün XIII əsrdə dinc və əmin-amanlığı təmin edən bir nöqtəyə çevrilmişdi. Arxeoloji axtarışlar zamanı abidədən müxtəlif saxsı qab nümunələri toplanmışdır. Toplanan qabları əsasən iki: şirli və şirsiz saxsı qablar qrupuna ayırmaq olar. Saxsı məmulatları arasında Parfiya və Sasani dövrlərinə aid nümunələr də vardır. Islam dövrünə aid müxtəlif rənglərdə şirli saxsı qab fraqmentləri kəndin ətrafından, çillə-xana yerləşdiyi təpədən, mağara evlərin içərisindən əldə edilmişdir.

Gorantəpə yaşayış yeri Ərdəbil şəhərindən 7 km şimalda, dəniz səviyəsindən 1427 m hündürlükdə yerləşir. Gorantəpə arxeoloji abidəsi təpəvə onun qərb tərəfində nisbətən hamar sahədə yerləşən qəbiristanliqdan ibarətdır. Yaşayış yeri təpə üstündədir. Təpənin enişi şimal tərəfində itidir. Şərq tərəfində də belə bir vəziyyət mövcüddur; burada itilik daha sərtdir. Təpənin cənub tərəfində şəraıt dəyişir, burada ətəklərin enişi yumşaq və kütdür. Təpə qərb tərəfdən üzərində qəbiristanlıq olan hamar sahəyə bitişmişdir Burada eniş yumşaqdır. Abidənin hüdudu yalnız təpə ilə kifayətlənmir; şimal, cənub və qərb yanların nisbətən hamar sahələrindən əldə edilmiş müxtəlif dövrlərə aid arxeoloji materiallardan məlum olmuşdur ki, onlarda yaşanılan dövrlər təpə ilə paralel yaşanmışdır. Təpənin hərbi müdafiə mövqeyindən belə aydın olur ki, təpənin üzərində son tunc dövründə kiçik bir qala salınmışdır. Qaladan dəmir dövründə, eləcədə sonrakı tarixi dövrlərədə və İslam dövründə də istifadə edilmişdir.

Cənub yanında müdafiə divarının qalıqları hələ də mövcuddur. Qala divarı ikiqatdır. Divarları yonulmamış daşlarla hörülüb, aralarındakı boşluğu isə iri və xırda ölçülü daşlarla doldurmuşlar. Divarı daşlarla hörülərkən heç bir

məhəluldan istifadə edilməmışdır. Təpənin bəzi yerlərində müxtəlif inşaat hissələrinin divarlarına aid olan binövrə daşlarının və eləcə də təndir izini xüsusilə qeyri-qanuni şəkildə qazıntıların baş verdiyi yerlərdə müşahidə olunur. Qəbiristanlıq təpənin qərbində nisbətən hamar bir sahədə yerləşmişdir. Abidənin ərazisindən toplanmış yerüstü arxeoloji materiallar əsasən saxsı məmulatından ibarətdir və onların arasında “Ağ-kənd” tipli şirli keramika üstünlük təşkil edir. Qeyd etmək lazımdır ki, Ərdəbil "Ağ-kənd" tipli saxsı qabların istehsalı mərkəzlərindən biri olmuşdur.Gorantəpə ərazisindən Səlcuq dövrünə aid sikkələr də tapılmışdır.

Yelsuyu yaşayış yeri Ərdəbilin şimal-qərbində, Germinin Abasalılı kəndinin 3.7 kilometrliyində, dəniz səviyyəsindən 895 metr yüksəklikdə yerləşir. Yelsuyu arxeoloji kompleksi üç hissədən, uca təbii bir təpənin başında yerləşən kiçik bir qaladan, təpənin cənub şərq hissəsində yerləşən yaşaış sahəsindən və qalanın cənub qərb, qərb və şimal şərqində yerləşən üç qəbiristanlıqdan ibarətdir.

Qalanın yerləşdiyi təbii təpənin zirvəsinin bir hissəsi qayalıqdır. Bu təpə Sambur çayı, dərin dərələr və yarıqlar vasitəsilə ətraf dağlardan ayrılmışdır. Onun zirvəsi Sambur çayının yatağından 132 metr hündürlükdədir.

Təpənin üzərində daş və 23x23x6 ölçülü kərpiclərlə əhəng məhlulunda tikilmiş böyük bir binaın qalıqları izlənir. Sal qayada oyulmuş hovuz 2.9x6 metr olçüdədir.Təpənin şərq tərəfində, enişdə isə qayada oyulmuş diametri 2,2 m, dərinliyi 5.5 metr olan bir quyu qeydə alınmışdır..

Arxeoloji tapıntılar arasında saxsı məmulatı çoxluq təşkil edir. Bu keramika həm naxış, həm də forma baxımından son dərəcə peşəkarlıqla hazırlanıb və bölgənin İslam dövrünə aid digər saxsılarından fərqlənirlər.

III fəslin **“Orta və kiçik kənd tipli yaşayış yerləri”** adlanan ikinci yarımfəslində Govur təpəsi, İlandağ, Karvan, Divan-xana təpəsi, Nadiri təpəsi yaşayış yerləri haqqında məlumat verilir.

Govur təpəsi yaşayış yeri sahəsi Ərdəbil şəhərindən 12 km şimal-qərbdə, Şərəvər kəndinin ərazisində, dəniz səviyyəsindən 1344 metr yüksəklikdə yerləşir. Təpənin ətrafına nisbət hündürlüyü 2 metrdir. Təpənin zahiri forması yumurta şəklindədir. Təbii amillərin, ümumiyyətlə suyun təsiri nəticəsində təpə eroziyaya uğramış və yarıqlar əmələ gəlmiş,eləcədə icazəsiz qazıntılar və kənd təsərrüfat işləri əlaqədar öz ilkin formasını itirmişdir.

Təpənin üzərində və yamaclarında, eləcə də ətraf sahələrdə saxsı nümunələri vardır. Bütün nümunələr onların dulus çarxı ilə istehsal edildiyini və səthinin anqoblandığını göstərir. Saxsı məmulatı əsasən mükəmməl şəkildə bişirilmişdir. Şirli saxsı nümunələrində naxışlanma oyma, cızma, batırma və yapma üsulu ilə aparılmışdır,istifadə olunan rənglərə gəldikdə isə yaşıl rəngin müxtəlif çalarları üstünlük təşkil edir. Saxsı məmulatının əksəriyyətinin İslam

dövrünə aiddir və ilkin arxeoloji tədqiqatlara görə yaşayış yerinin İslam mədəniyyətinə aid olduğunu ehtimal etmək mümkündür.

İlanlıdağ yaşayış yeriMeşkinin 28 km şimal-qərbində, İlandağı dağının cənub ətəyində, dəniz səviyyəsindən 1174 m yüksəklikdə yerləşir.Mədəni sərvət talançılarının qazıntıları nəticəsində yaşayış yerinin mədəni təbəqə yatımı dağıntılara məruz qalıb, bəzi yerlərdə tikili qalıqları üzə çıxarılıb. Təpənin qərb tərəfində bişmiş kərpicdəninşa olunmuş 48 $m^2$sahəyə malik kiçik bir otağın qalıqlarırast gəlinib. Su dəyirmanının qalıqları izlənir.

Təqribən 1 hektarlıq sahədə qəbiristanlıq yerləşir və burada 20-dən çox baş daşı vardır. Onların ən ucası 2.5 metrdir.

Təpənin bütün sahə və yamaclarında, eləcə də ətraf sahələrdə saxsı qırıqları səpələnmişdir.Təpənin üzərindəki maddi mədəniyyət qalıqlarının elmi araşdırması, eləcədə saxsı nümunələri göstərir ki, burada qədim dövrdən orta islam mədəniyyəti dövrünə kimi yaşayış davam etmişdir.

Karvan yaşayış yeri Kivi şəhərindən 15 km şimalda, Nüdi kəndinin ərazisində dəniz səviyyəsindən 2043 metr yüksəkdə yerləşirvə dağ ətəyində, şərq- qərb istiqamətli 140 x 100 m ölçülərdə təpə formasında olub iki tərəfində dərinliyi 20 metr olan dərə vardır. Arxeoloji faktlar, o cümlədən divarların bünövrəsində istifadə edilən külli miqdarda daş materialının qalıqları, saxsı qırıqları və digər yerüstü tapıntılar abidənin karvan yolu üzərində dayanacaq olduğunu, yaxud da yarımköçəri əhalinin yaylaq binəsi olmasını göstərir.

Divan-xana təpəsi adlı yaşayış yeri Qızıl-üzən çayının qollarından olan Givi çayının yaxınlığında, Mikayıl-abad kəndindən300- metr aralıda, ətraf ərazidən hündürlüyü 2 metr olan oval formalı təpə formasındadır.Arxeoloji araşdırmalara əsasən Mikayılabadın bir kənd kimi məskunlaşması orta yüzilliklərdə ya da ondan bir az əvvəl başlanmışdır. Abidədə aparılan arxeoloji tədqıqatlarda toplanan yerüstü materiallar arasında ən başlıcası səlcuq və elxani dövrlərinə aid şirli və şirsiz saxsı saxsı nümunələrindən ibarətdir. Ilkin arxeoloji tədqiqatlara əsasən təpə Səlcuqlar və Elxanilər dövrünə aid edilir.

Nadiri təpəsi Ərdəbil- Sarab yolunda, körpünün yanında və Balıqlı çayının şərq sahilində, dəniz səviyyəsindən 1341 metr yüksəklikdə yerləşir. Təpə inşaat işləri zamanı dağıntıya məruz qalıb. Hal-hazırda Nadir təpəsinin sahəsi bir hektardan azdır. Təpənin ən yüksək nöqtəsi ətraf ərazidən 9 metr yüksəkdir.Qeyri-qanuni aparılmış qazıntı işləri nəticəsində böyüklü- kiçikli daş və divar qalıqları üzə çıxarılıb.

Təpənin üzərində və yamaclarında, eləcədə ətraf sahələrdə saxsı qırıqları səpələnib. Qırıqların formasına əsasən onlar kasa, boşqab, küzə, böyük həcmli qabların qalıqlarından ibarətdir. Onların çoxu İslam dövrünə aiddir. Əldə

edilən artefaktlar abidənin erkən və klassik İslam dövrlərinə aid olduğunu ehtimal etməyə imkan verir.

Sərəyin təpəsi Ərdəbildən 20 km qərbdə, Alvars kəndi yolunun üstündə arxeoloji yerləşir. Ehtimal olunur ki, bu abidə Səreyin yaşayış məntəqəsinin ilk özəyi olmuşdur. Yaşayış yerinin yaxınlığında ətrafı daşla hörülmüş qədim bir qəbiristanlıq da vardır ki, kəndin tarixi əhəmiyyətini göstərir.

Toplanmış yerüstü arxeoloji materiallar əsasında yaşayış yeri erkən və inkişaf etmiş orta əsrlərə aid edilmişdir.

Dissertasiyanın **"Nəticə"**sində tədqiqatın başlıca yekunları yığcam şəkildə öz əksini tapmışdır.

Arxeoloji tədqiqatlar ən qədim zamanlardan Azərbaycanın tarix və mədəniyyətində xüsusi mövqe tutan Ərdəbil bölgəsinin orta əsrlərdə də sıx məskunlaşdığını, burada Ərdəbil, Bərzənd, Varsan kimi şəhərlər yerləşdiyini təsdiq edir. Bölgə şəhərləri topoqrafik baxımdan ümum Azərbaycan səciyyəsi daşıyaraq narınqala (içqala), şəhristan (içəri şəhər) və rabaddan (bayır şəhər) ibarət idi. Karvan yollarının qovşağında yerləşən, mühüm sənət istehsalı və ticarət mərkəzi olan Ərdəbil şəhəri bölgənin ən mühüm şəhəri idi.

Arxeoloji qazıntılar zamanı üzə çıxarılan tikililərin qalıqları, eləcədə dövrümüzə gəlib çatmış memarlıq abidələri ictimai-dini binaların və yaşayış evlərinin inşaatında müsəlman memarlığı üçün səciyyəvi olan çatma tağ-tavanlardan, günbəzlərdən, çatma tağlı portallardan, şəbəkəli daş pəncərələrdən, stalaktit karnizlərdən və digər konstruktiv elementlərdən geniş istifadə edildiyini, hörgünün dəqiq aparıldığını, hörgü tikişlərinin ardıcıllığına ciddi riayət olunduğunu sənədləşdirir.

Arxeoloji axtarışlar nəticəsində Ərdəbil bölgəsinin ort6a əsr kəndlərinin bəzilərinin qalıqları aşkarlanaraq tədqiqata cəlb edilib. Onlar tutduqları sahəyə görə böyük, orta dərəcəli və kiçik kəndləri təmsil edirlər.

Arxeoloji tədqiqatlar zamanı toplanan artefaktlar arasında saxsı məmulatı üstünlük təşkil edir. Saxsı məmulatı əsasən dulus çarxında hazırlanıb, sabit hərarət rejimində bişirilib, saxsısı sıx və möhkəmdir. Yalnız böyük həcmli qablarda bişirmə prosesi tam olmamışdır. Saxsı məmulatı şirli və şirsiz olmaqla iki bölməyə ayrılır.Şirli saxsı nümunələrinin təhlili Ərdəbil bölgəsinin Ağkənd adı ilə tanınan keramikanın istehsal mərkəzlərindən biri olduğunu göstərir.

Monqol işğalı digər sənət sahələrində olduğu kimi dulusçuluğa da ağır zərbə vurmuşdur. Arxeoloji materiallar XIII əsrin sonu-XIV əsrin əvvəllərində şəhər həyatının tədrici bərpası ilə dulusçuluğun da tədricən dirçəldiyini, istehsal olunan məmulatın çeşidinin artdığını göstərir. Bu dövrdə yaşıl, sarı, mavi, firuzəyi və şabalıdı rəngli şirdən istifadə olunurdu. Saxsı məmulatının bədii işlənməsində nəbati naxışlartədricən üstün mövqe tuturdu. XIV-XVII

əsrlərdə istehsal olunmuş bəzi saxsı qablar bişirilmə keyfiyyətinə görə XI-XII əsrlərin nümunələrindən heç də geri qalmırdı.

Bütövlükdə, arxeoloji tədqiqatlar Ərdəbil bölgəsinin maddi mədəniyyətinin ümummüsəlman və ümum Azərbaycan səciyyəsi daşıdığını təsdiqləyir.

**Dissertasiyanın əsas məzmunun müəllifin nəşr olunmuş aşağıdakı məqalə və məruzələrində əksini tapmışdır:**

1. Geochemical and Petrological Study of the Basaltic Rocks as Building Stones of the Sacred / Non-Sacred Sites (the Safavid Period) of the Ardebil Province, Iran. November 24-26, 2008. / In Proceedings of the International Symposia on Geoscience Resources and Environments of Asian Terranes. Bangkok, Thailand, Chulalongkorn University, 2008, pp.262-264.
2. Petrology and geochemistry of volcanic rocks from NW of Iran: A case study from the archaeological sites. June 21-26, 2009. / In Conference Abstracts Goldschmidt 2009. Davos, Switzerland, Geochimica et Cosmochimica Acta Supplement, 06/2009, p.A1202.
3. Geochemistry and petrogenesis of Paleocene-Eocene shoshonitic lavas in Lahrud region, NW of Iran. 9-14 November, 2010. In Proceedings of the International Symposia on Geological Anatomy of East and South Asia. Kuala Lumpur, Malaysia, Faculty of Science, University of Malaya, 2010, pp.79-81.
4. Köhnəqalanın Arxeologi səciyyəsinə dair. // Azərbaycan Arxeologiyası jurnalı,Bakı:Xəzər Universitəsi, 2011, №2, s. 42-48.
5. Ərdəbil bölgəsinin orta əsr şəhərləri. // Antik və orta əsr Azərbaycan şəhərləri: arxeoloji irsi, tarixi və memarlığı. 27-28 oktyabr, 2010. Azərbaycan, Şəmkir-Gədəbəy: beynəlxalq elmi konfransın materialları. Bakı, Çaşıoğlu, 2012, s. 213-220.
6. Şeyx-Səfi kompleksində "Cənnətsəra" və "Hərəmxana" abidələri haqqında. // Tarix və onun problemləri jurnalı, 2013, №1, 290 s.
7. Geochemistry and petrogenesis of volcanic rocks in the Lahrud region, of the Ardebil province, Iran. August 25-30, 2013. / In Conference Abstracts Goldschmidt 2013. Florence, Italy, p. 2186.
8. Petrogenesis of Quaternary Shoshonitic Volcanism in NE Iran (Ardabil): Implication for Postcollisional Magmatism // Journal of Geological Research, Hindawi Publishing Corporation, 2013, Vol. 2013, Article ID 735498, 11 pages.

9. Archeology and architectural aesthetics of Jannat-sara mosque and Haramkhana, two buildings located within the monument Sheikh Safi al-din Ardabili (Ardabil world heritage, in Iran) // Research Journal of Recent Sciences, 2013, Vol. 3, issue 4,24 pages.

10. Complex of Shaykh Safi al-din Ardabili the Ardabil-Iran // History Research, USA, David Publishing Company, 2014, Vol. 4, No. 1, 2014, 11 pages.

11. جمعه مسجد نگین انگشتر بر اردبیل شهر شمشیر زنان عدالت. اردبیل، بی نا، 1372، 62 صفحه.

12. مجموعة شیخ صفي در اردبیل. اردبیل، بی نا، 1372، 98 صفحه.

13. جغرافیاي اردبیل، جلد اوّل. اردبیل، آرتا، 1372، 124 صفحه.

14. مجموعة بقعة شیخ صفي و شناخت آن (3) // فصلنامۀ سبلان، 1373، شمارۀ چهارم، صفحۀ 25- 26.

15. گنبد معروف به الله یا گنبد مقبرة شیخ صفي // فصلنامۀ سبلان، 1373، شمارۀ ششم، صفحۀ43- 44.

16. مجموعة بقعة شیخ صفي و شناخت آن (حرمخانه) // فصلنامۀ سبلان، 1374، شمارۀ دهم، صفحۀ 23.

17. گنبد مقبرةشاه اسماعیل صفوی // فصلنامۀ سبلان، 1374، شمارۀ هفتم، صفحۀ 53 - 54.

18. مجموعة بقعة شیخ صفي و شناخت آن (نمازخانه) // فصلنامۀ سبلان، 1378، شمارۀ سوّم، صفحۀ35- 36.

19. گنبد "الله الله"و گنبد مقبرةشاه اسماعیل" جلوه های ماندگار هنر و معماری صفویّه در اردبیل // مجلّۀ رعد، 1379، شمارۀ پیاپی 22 و 23، صفحۀ 31- 34.

20. بررسی اندام وارۀ بازارهای سنّتی شهرهای اردبیل، تبریز و ... // مجلّۀ رعد، 1380، شمارۀ پیاپی 28 و 29، صفحۀ 33- 38.

21. پي جويي و تحلیل اجزا و عناصر معماري جمعه مسجد اردبیل. تبریز، مؤسّسۀ مطبوعاتی رعد، 1383، 114 صفحه.

22. اردبیل در دورة اسلامي-//مجموعۀ مقالات همایش، بنیاد ایران شناسی، 30 آذر لغایت 3 دی ماه 1383.

23. ویژگي و تحوّلات ارگانیك معماري در عصر ایلخاني از نگاه كلّي-//، خلاصۀ مقالات كنگره، طرح احیاي ربع رشیدي و فرهنگ و تمدّن ایران عصر ایلخاني، دانشگاه تبریز، اردیبهشت ماه 1384، صفحۀ 200 تا 203.

24.دیلمیان در گسترهٔ تاریخ-//، چکیدهٔ مقالات همایش، دیلمان شناسی، ادارهٔ کلّ فرهنگ و ارشاد اسلامی استان گیلان، مرداد 1384، ص 40.

25.برجستگي هاي ممتاز هنر اسرارآمیز-//، مجموعهٔ مقالات همایش، حکمت معنوي و فلسفة هنر، پژوهشگاه فرهنگ و تمدّن اسلامی حوزهٔ هنری و دانشکدهٔ هنر دانشگاه شاهد، آذر ماه 1384، ص 43 تا 57.

26.زیبایي شناسي و ویژگي هاي برجستة هنر نگارگري در دورة اسلامي/، مجموعهٔ مقالات همایش، زیبایي شناسي دین، مرکز مطالعات و تحقیقات هنری معاونت امور هنری وزارت فرهنگ و ارشاد اسلامی، دی ماه 1384 شمسی.

27.بررسي معماري و سازه اي مقابر باغ شیخ کلخوران اردبیل. تبریز، مؤسّسهٔ مطبوعاتی رعد، 1384، 116 صفحه.

28.آثار مهمّ و برجستة ساختماني و ویژگي ها و دستاورد هاي معماري و تزییني تمدّن اسلامي ایران در دوران سلجوقیان و ایلخانیان (طرح پژوهشی). اردبیل، دانشگاه محقّق اردبیلی، 1385، 111 صفحه.

29.تحلیل اجزاء و عناصر معماري و هنري بقعة شیخ صفي‌الدین اردبیلي و مقبرة شیخ امین‌الدین جبریل (طرح پژوهشی). اردبیل، دانشگاه محقّق اردبیلی، 1386، 100 صفحه.

30.آثار مهمّ و برجستة ساختماني و ویژگي ها و دستاوردهاي معماري و تزییني تمدّن اسلامي ایران در دورة تیموریان (طرح پژوهشی). اردبیل، دانشگاه محقّق اردبیلی، 1386، 54 صفحه.

31.تحلیل ژئو شیمیایي سنگ هاي مافیك کواترنري سبلان"از جمله انواع سنگ هاي شالوده برجسته ترین آثار معماري دوره صفوي در اردبیل" (طرح پژوهشی). اردبیل، دانشگاه محقّق اردبیلی، 1387، 119 صفحه.

32.تحلیل ژئو شیمیایي سنگ هاي بازالتي منطقة لاهرود "از جمله انواع سنگ هاي شالودة برجسته ترین آثار معماري دورة اسلامي در اردبیل و مشکین شهر" (طرح پژوهشی). اردبیل، دانشگاه محقّق اردبیلی، 1388، 95 صفحه.

33مصادیق مهمّ ابنیّهٔ مذهبي و برجستگي هاي معماري و تزییني تمدّن اسلامي ایران در دورهٔ صفویان (طرح پژوهشی). اردبیل، دانشگاه محقّق اردبیلی، 1389، 106 صفحه.

34.ژئوشیمی و پتروژنز ولکانیک های شمال منطقة لاهرود- اردبیل: مثالی از پیدایش سری های شوشونیتی در شمال غرب ایران // *مجلّة علمی پژوهشی دانشگاه اصفهان*، 1389، شمارة چهارم، صفحة 15- 34.
35.بررسي ماهيّت، كالبدي و باستان شناختي قلاع برجسته و زيستگاه هاي شهري پهن دشت اردبيل در دورة اسلامي(طرح پژوهشی). اردبیل، دانشگاه محقّق اردبیلی، 1391، 68 صفحه.
36.ژئوشیمی و پتروژنز سنگ های ولکانیک پلیوکواترنری سبلان: کاربردی از ولکانیسم بعد از برخورد// مجلّة بلورشناسی وكاني شناسي ايران، 1393.

Шахбази Ширан Г.Э.

# СРЕДНЕВЕКОВЫЕ АРХЕОЛОГИЧЕСКИЕ ПАМЯТНИКИ АРДЕБИЛЬСКОГО РЕГИОНА
## РЕЗЮМЕ

Диссертационная работа, посвященная средневековым археологическим памятникам Ардебильского региона, состоит из введения, трех глав, заключения, списка использованной литературы, а также иллюстраций, наглядно демонстрирующие археологическую базу диссертации.

Во «Введение» обоснована актуальность темы, показаны хронологические рамки, цели и задачи, степень изученности, источниковедческая база, методология исследования, научная новизна, практическая значимость и апробация диссертации.

Первая глава «Географические условия и политическая история Ардебильского региона» является своего рода вводной частью исследования. Эта глава состоит из трех параграфов, в которых освещены вопросы географической среды, топонимы и политическая история региона.

Во второй главе «Города и крепости» дана историко-археологическая классификация выявленных городских поселений и крепостей, рассматриваются археологические артефакты, полученные в ходе стационарных и разведывательных раскопок на данных памятниках. Главными городскими центрами региона были Ардебиль, Берзенд, Варсан. Вопросы урбанизации, ее уровень, характерные черты этого процесса нашли отражение в археологических материалах и сведениях письменных источников. В этой главе на основе анализа археологических материалов, сведений письменных источников, а также на основе сохранившихся памятников характеризуется соборная мечеть Ардебиля и комплекс Шейх Сефи.

В третьей главе «Поселения сельского типа» рассматриваются сельские поселения. Все они изучены разведывательными изысканиями и различаются между собой по величине занимаемой площади. Среди них имеются и крупные поселения. Такими являются Гянза, Вийенд, Горантепе, Йелсуйу.

В «Заключении» диссертации подводятся итоги исследования, суммируются выводы и наблюдения, полученные в ходе работы.

**Shahbazi Shiran H. E.**

# MEDIEVAL ARCHAEOLOGICAL MONUMENTS OF ARDEBIL PROVINCE

## SUMMARY

This thesis has been dedicated to medieval archaeological monuments of Ardebil province. This includes an introduction, three chapters, conclusion, bibliography and illustrations that demonstrate archaeological base of thesis.

Relevance of thesis, methodology and methods, goals and objectives of research, chronological framework and scientific innovation of dissertation has been shown in the introduction.

The first chapter is called "Geography and political history of Ardebil province", joins a kind of introductory part of the research work and geographical environment, place names and political history have been illustrated in three sections.

The second chapter is called "Cities and fortresses", given the historical and archaeological classification of identified towns and fortresses are considered archaeological artifacts, obtained during excavation and intelligence data on monuments. Major urban centers in the region were Ardebil, Berzend, Varsan. Urbanization issues, its level, characteristic features of this process are reflected in the archaeological materials and information of written sources. In this chapter, according to archaeological and written sources of information as well as on the basis f the surviving monuments characterized cathedral mosque of Ardebil and complex of Sheikh Safi.

In the third chapter rural areas are considered and is called "The settlements of rural type". All of them are studied in exploratory survey and have differences in size of site. There are large settlements among them. Such settlements are Gyanza, Viyend, Gorantappeh, Elsuyu. It have been arrived at a result summarized the findings and observations obtained during research.

Азярбайъан МЕА-нын мятбяясиндя
чап олунмушдур.

Бакы, Щ.Ъавид пр. 115

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ АРХЕОЛОГИИ И ЭТНОГРАФИИ**

---

*На правах рукописи*

**ГАБИБ ЭСМАЛЫ ОГЛЫ ШАХБАЗИ ШИРАН**

# СРЕДНЕВЕКОВЫЕ АРХЕОЛОГИЧЕСКИЕ ПАМЯТНИКИ АРДЕБИЛЬСКОГО РЕГИОНА

**5505.02 – Археология**

## АВТОРЕФЕРАТ

**диссертации на соискание ученой степени**
**доктора философии по истории**

**БАКУ -2014**